**SABIR ŞAHTAXTI (HACIYEV)**
*AzərTAc-ın İran İslam Respublikası üzrə xüsusi müxbiri,*
*Bakı Dövlət Universitetinin politologiya və sosiologiya kafedrasının dissertantı*

# AZƏRBAYCANIN MILLI QURTULUŞU – HEYDƏR ƏLIYEVIN SÜLH VƏ SABITLIK STRATEGIYASI

Məqalə 1993-cü il iyunun 4-də Azərbaycanın Gəncə şəhərində baş verən hərbi qarşıdurma nəticəsində ölkədə baş verən gərgin ictimai-siyasi-hərbi vəziyyətdən və ümummilli lider Heydər Əliyevin xilaskarlıq missiyasından bəhs edir. Müəllif əsaslandırır ki, müstəqil Azərbaycan dövlətinin mövcudluğu Heydər Əliyev qətiyyətinin təntənəsidir. Ulu öndərimizin ölkədə bərqarar etdiyi sabitlik və uzaqgörən sülh siyasəti təkcə Azərbaycanı yox, bütövlükdə Cənubi Qafqazın xilasına yönəlmişdir.

1993-cü il iyunun 4-də Azərbaycanın qədim Gəncə şəhərində baş verən qanlı hadisələr ölkəmizin müasir tarixinə olduqca dəhşətli və ən qorxulu hərbi-siyasi proses kimi yazıldı. Gəncədə baş verən hərbi qarşıdurma 1920-ci ildə qəsbkar sovet ordusunun Azərbaycan Xalq Cümhuriyyətini devirərək ölkəmizi işğal etməsindən də təhlükəli idi. Faktiki olaraq ölkədə vətəndaş müharibəsi başlanmış, qardaş qanı axıdılmışdır/5,s.15-16/. Belə bir vəziyyətdə Azərbaycan dövlət müstəqilliyinin bərpası ilə bağlı sonuncu tarixi şans birdəflik itirilə bilərdi. İtirilməkdə olan bu şansı Azərbaycan xalqına ümummilli lider Heydər Əliyev qaytardı. Akademik Ramiz Mehdiyevin ideya müəllifliyi ilə AzərTAc-ın nəşr etdirdiyi "Dünyanı heyran qoyan insan" kitabında yazılır:"...Heydər Əliyevin ən böyük xidməti Azərbaycanın dövlət müstəqilliyini qoruyub saxlaması, onu əbədi və dönməz etməsi, ölkəmizin dünya birliyində layiqli yer tutmasını təmin etməsi olmuşdur"/7,s.3/.

Gəncədə baş verənlər əslində son dərəcə siyasi naşılığı ilə ölkəni uçuruma yuvarladan Azərbaycan Xalq Cəbhəsi (AXC)-Müsavat cütlüyü hakimiyyətinin daxili ziddiyyətləri əsasında yaratdığı hamimiyyətdaxili hərbi-siyasi qarşıdurma idi. Mövcud hakimiyyətə qarşı çıxan korpus komandiri Surət Hüseynov AXC-Müsavat cütlüyü hakimiyyətinin öz kadrı kimi Azərbaycan ictimaiyyətinə tanıdılmışdır. Ümumiyyətlə, o dövrdə prezidentlik iddiasına düşmək gündəlik məişət işi qədər adiləşmişdir. Bu ab-havanı insanların psixologiyasında məhz mövcud hakimiyyətin səriştəsizliyi və hakimiyyətdəkilərin əksəriyyətinin şəxsiyyət kimi kasadlığı formalaşdırmışdır. "Həmin dövrdə özünü prezident olmağa layiq hesab edənlərin sayı yüzlərlə idi. Silahlı dəstəsi olan (beləlləri hər rayonda, hər kənddə var idi) və ətrafına özü ağılda 5-10 nəfər yığan hər kəs prezidentlik iddiası ilə yaşayırdı"/2,s.35/. Bu fikir – müasir tariximizin acı gerçəkliyi görkəmli mütəfəkkir, nəzəriyyəçi alim Nizamülmülkün məşhur "Siyasətnamə" əsərindəki bir məqamla tam şəkildə tamamlanır:"...Hər dəfə göydən bəla yağdıqda, dövlətə bədnəzər baxdıqda hökumət dəyişər, hakimiyyət əldən-ələ keçər, fitnə qalxar, qarmaqarışıqlıq düşər, bədxah qılınclar öz qınından çıxarılar. Bu qarmaqarışıqlıqda adlı-sanlı adamlar sıxışdırılar, müfsidlər iş başına keçib qudurar, istədiklərini edərlər. Düz adamların işi çətinləşər, vəziyyətləri ağırlaşar. Alçaq adamlar əmirliyə yüksələrlər, nəciblər məhrum qalarlar. Heç bir alçaq öz üzərinə vəzir, şah adını götürməkdən boyun qaçırmaz"/3,s.123/.

Ölkədəki siyasi partiya və təşkilatların silahlı dəstələr yaratması Azərbaycanın düçar olduğu bəlaları yaradan əsas səbəblərdən biri idi. Dövlətçiliyin məhvinə yönəldilmiş, yuxarıda qeyd olunan bütün mənfi amillər məhz Heydər Əliyevin siyasi iradəsi nəticəsində dəf edilmişdir. Xüsusilə qeyd etmək lazımdır ki, 1988-1993-cü illərdə Azərbay-

canın ictimayi-siyasi həyatına qədəm qoyan siyasi partiya və təşkilatlar arasında yalnız Heydər Əliyevin yaratdığı Yeni Azərbaycan Partiyasının (YAP) silahlı birləşməsi olmamışdır. Heydər Əliyev: "...Partiyanın adı onun siyasi xəttini, siyasi prinsiplərini, siyasi strategiyasını, perispektivini əks etdirməli, buna münasib olmalıdır"/8,s.90/.Qısa bir zamanda YAP geniş xalq kütlələrini özündə birləşdirdi və avanqard qüvvəyə çevrildi. Heydər Əliyev zəkasından güc alan bu partiya dövrünün ən mütərəqqi siyasi qüvvəsi kimi nümunəvi inkişaf xətti keçərək Azərbaycanın dövlət quruculuğunda mühüm rol oynadı/1, bölmə siyasət-2000-2009/. "...Yeni Azərbaycan Partiyasının yaranması ilə Azərbaycan siyasi həyatında yeni bir mərhələnin başlanğıcı oldu...Partiyanın qəbul etdiyi əsas ideoloji prinsiplər – müstəqil dövlətçilik; qanunçuluq; azərbaycançılıq; vətənçilik; varislik; yaradıcı təkamül; konstruktiv əməkdaşlıq; vətəndaş həmrəyliyi; sosial ədalət prinsipləri ümummilli səciyyə daşıyır"/4,s.238/.

İctimai-siyasi təşkilatların silahlanması istiqamətdə davam edən təbəqələşmə və qarşıdurma Azərbaycanın müdafiə imkanlarını azaltmış, Ermənistanın işğalçılıq məqsədlərinə münbit şərait yaratmış, xarici təcavüzə aşkar dəstək vermişdir. 1994-cü ildə Bakıda keçirilən ümumrespublika toplantısında Heydər Əliyev bu barədə deyirdi:"(Azərbaycanda tez-tez hakimiyyət dəyişildi-S.H.)...Ermənistanda ordu, silahlı qüvvələr yarandı. Qarabağı ardıcıl olaraq öz əllərinə keçirməyə başladılar. Azərbaycanda isə ordu yaratmaqla məşğul olmadılar. Ayrı-ayrı silahlı dəstələr bu fürsətdən istifadə edib öz şəxsi məqsədlərinə nail olmağa çalışdı. Belə olan halda, o vaxt Azərbaycanın rəhbəri Ayaz Mütəllibov özü üçün "Qardaşlıq" adlı silahlı dəstə yaratdı. Müxalifətdə olan adamlar cəbhədə döyüşmək əvəzinə, torpağımızı qorumaq əvəzinə öz müxalifət fikirlərini həyata keçirmək üçün silahlı dəstələr yaratdılar. Belə silahlı dəstələrin yaranması, şübhəsiz ki, qanuna sığmayan şeydir "/5,s.146/.

Gəncə hadisələrinin sürətli inkişafı Azərbaycanın dövlət müstəqilliyini süquta aparırdı. Bir tərəfdən də Ermənistan hərbi qüvvələrinin sürətlə genişlənən hücumları, işğalçılıq prosesinin gerçəkləşməsi, ölkə daxilindəki özbaşınalıq, siyasi qüvvələrə məxsus hərbi birləşmələr arasında yaranmış qarşıdurma, milli-etnik zəmində törədilən separatçılıq halları, onsuz da Azərbaycanda ağır olan hərbi-siyasi durumu günbəgün gərginləşdirirdi. Belə bir şəraitdə Gəncədə qardaş qanının axıdılması Azərbaycanın dövlət müstəqilliyinə qarşı yönəldilmiş hərbi separatçılıqdan başqa bir şey deyildi. Məlum Gəncə hadisələri ilə bağlı Az.Res. Ali Sovetinin (Milli Məclisin-S.H.) 16 iyul 1993-cü ildə qəbul etdiyi qərarda deyilir:"...Bu dövrdə baş vermiş hadisələr respublikanın bir çox rayonlarında qanun pozuntularına yol vermişdir. Özbaşınalıq, hərc-mərclik, zorakılıq halları mövcud olmuşdur, bəzi yerlərdə ayrı-ayrı şəxslər qeyri-qanuni yollarla dövlət orqanlarını öz əllərinə keçirmişlər. İqtisadiyyata, xüsusən kənd təsərrüfatı işlərinin aparılmasına ziyan dəymişdir. Əhaliyə sosial xidmət və təminat xeyli pozulmuşdur "/2,s.296/.

Ümumiyyətlə, 1988-1993-cü illərdə bir-birini əvəz edən hakimiyyət rəhbərləri, eləcə də onların yaxın ətrafı Azərbaycan dövlətçiliyinin taleyi ilə oynamışlar. Bu fikri Ə.Vəzirova, A.Mütəllibova, Y.Məmmədova, Ə.Elçibəyə, İ.Qəmbərova, AXC-Müsavat hakimiyyətinin rəhbərlərinə, Surət Hüseynov və onun tərəfdarlarına, istərsə də bu vəziyyətdən yararlanmağa çalışan digər qüvvələrin hər birinə şamil etmək mümkündür. Tarixçi alim Yaqub Mahmudovun Gəncə hadisələrini törədən AXC-Müsavat iqtidarının çarəsizlikdən Heydər Əliyevə üz tutmasını belə qiymətləndirir: "Məhz o zaman – 1993-cü ilin iyun günlərində Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə Azərbaycanın qurtuluşunda həlledici dönüş baş verdi "/6,s.107/.

Ölkədəki vəziyyətin gərginliyini adi hal kimi qarşılayan siyasətbazların səbatsızlığından hiddətlən Heydər Əliyev deyirdi:"...Siz hamınız burada oturmusunuz, Gəncə-

dən xəbəriniz yoxdur, heç biriniz ora getməmisiniz, Burda oturub yenə də məsələ müzakirə etmək istəyirsiniz və istəyirsiz ki, mən gedib orada qalmışam, gəlmişəm, burada dünyaya elan eləyim ki, bunun çıxış yolları nədir. Mən keçən dəfə dedim. Naxçıvandan bura mən vicdanımın tələbi ilə gəlmişəm. Azərbaycan Respublikasının prezidenti Əbülfəz Elçibəyin xahişi ilə gəlmişəm və gələn gündən bu işlə məşğulam "/2,s.163/.

1993-cü il iyunun 15-i Azərbaycanın yeni qurtuluş günü oldu. Ümummilli lider Heydər Əliyevin Azərbaycan Respublikasının Ali Sovetinə sədr seçilməsi ilk növbədə Azərbaycan xalqına nikbinlik ruhu gətirdi, əhali ümidsizlikdən, inamsızlıqdan xilas oldu, ölkədə mübarizlik əhval-ruhiyyəsi çiçəkləndi. "Azərbaycan vətəndaşları bu taleyüklü dövrdə də Heydər Əliyevin sadiq müttəfiqləri oldular, ilk növbədə, özlərinə hörməti bərpa etmək üçün bütün iradəsini və həyat enerjisini səfərbər edə bildilər"/7,s.8/.

Heydər Əliyevin xalq arasındakı mifik nüfuzu ölkədə tamamilə yeni bir psixoloji ab-hava yaratdı. Ulu öndərimiz Ali Sovetin sədri kimi ilk çıxışı ilə Azərbaycan xalqını mübarizəyə səslədi: "...Mən burada böyük bir nitq söyləmək niyyətində deyiləm. Yalnız bir neçə kəlmə mütləq deməliyəm. Ali Sovetin sədri kimi Azərbaycan xalqının tarixi naliyyəti olan Azərbaycan Respublikasının dövlət müstəqilliyini qorumağı, möhkəmləndirməyi, inkişaf etdirməyi özüm üçün əsas vəzifələrdən biri hesab edirəm. Azərbaycan Respublikasının dövlət müstəqilliyi 1918-ci ildə yaranmış ilk Azərbaycan Demokratik Respublikasının ənənələri əsasında, müasir tələblərə, dünyada gedən proseslərlə bağlı olaraq təmin olunmalıdır. Bu sahədə mən daim çalışacağam və heç kəsin şübhəsi olmasın ki, ömrümün bundan sonrakı hissəsini harda olursa-olsun, yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm....Azərbaycan Respublikası, bundan sonra onun başına nə gəlirsə-gəlsin, müstəqilliyini itirməyəcək, yenidən heç bir dövlətin tərkibinə daxil olmayacaq, heç bir başqa dövlətin əsarətinə düşməyəcək..."/2.171/.

Heydər Əliyevin tarixi çıxışından yuxarıda qeyd olunan sonuncu hissə əslində işğalçı Ermənistana və Azərbaycanda imperialist maraqları olan bütün böyük dövlətlərə siyasi mesaj idi. Ümummilli lider Azərbaycan xalqının gücünə arxalanaraq son dərəcə kəskin və qəti şəkildə öz siyasi iradəsini ortaya qoyaraq Azərbaycanın milli qurtuluşu ilə başlanan sülh və sabitlik strategiyasını bəyan etdi: "Respublikanın qarşısında çox böyük və ağır vəzifələr durur, müstəqilliyi, suverenliyi təmin etmək üçün Azərbaycan Respublikasının Ermənistan tərəfindən işğal olunmuş torpaqları geri qaytarılmalıdır. Azərbaycan Respublikasının ərazi bütövlüyü təmin olunmalıdır, müharibə qurtarmalıdır. Sülh yaranmalıdır"/5,s.18/.

Heydər Əliyev dövlətimizin xarici siyasətinin fəaliyyət istiqamətlərinin belə qiymətləndirirdi: "...Azərbaycan Respublikası demokratik dövlət kimi bütün dövlətlərlə bərabərhüquqlu münasibətlər yaratmalıdır. Hansı dövlət quruluşu, daxili siyasəti hansı istiqamətdə getməsindən asılı olmayaraq, biz normal münasibətlər yaratmalıyıq. Birinci növbədə bizim qonşularımızla lazımi mədəni, iqtisadi, dövlət münasibətləri yaradılmalıdır...Türkiyə Cümhuriyyəti ilə olan əlaqələr, şübhəsiz ki, respublikanın əhalisi tərəfindən bəyənilir...Qonşu İran İslam respublikası ilə bizim münasibətlərimiz yaxşılaşdırılmalıdır, inkişaf etdirilməlidir...Rusiya ilə Azərbaycan arasında müstəqil prinsiplər əsasında münasibətlər bundan sonra daha da yaxşı, daha da geniş, səmərəli olmalıdır...Ukrayna, Belarus,Gürcüstan, Orta Asiya dövlətləri, Qazaxıstan, Pribaltika dövlətləri, Moldova ilə biz daha geniş qarşılıqlı əlaqələr yaratmalıyıq...bütün Avropa ölkələri ilə bizim əlaqələrimiz genişlənməlidir. Məhz belə siyasət Azərbaycan Respublikasının müstəqil dövlət kimi formalaşmasına və inkişaf etməsinə kömək edəcəkdir"/5,s.21/.

Təssüf ki, Azərbaycanın milli qurtuluş tarixi qansız ötüşməmişdir. Xarici düşmənlərlə daxili separatçılar birləşərək Azərbaycanın dövlət müstəqilliyinə qarşı sonu görün-

məyən təxribatlar həyata keçirirdilər. Heydər Əliyevin hakimiyyətə qayıdışından az sonra xarici irtica separatçı Əlikram Hümbətovun əlilə Azərbaycanı parçalamağa ciddi cəhd etdi. Lakin Heydər Əliyev son dərəcə müdrik qərarlar qəbul etməklə əvvəlcə baş verən separatçılığa qarşı ictimai qınaq mənzərəsini formalaşdıra bildi. Əlikram Hümbətovun rəhbərliyi ilə ölkənin cənub bölgəsində baş verən separatçı hərəkətlərlə bağlı Milli Məclisin qəbul etdiyi qərarda deyilir:"...Son zamanlar Azərbaycanda yaranmış gərgin ictimai-siyasi və hərbi vəziyyətdən istifadə etməyə çalışan bir sıra qanunsuz silahlı birləşmələr Azərbaycan dövlətçiliyinə və ərazi bütövlüyünə xəyanət etmək qəsdinə düşmüşlər"/5,s.27/.

1994-cü il mayın 12-də Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında 10 il müddətinə atəşkəs əldə olundu. Bu müstəqil Azərbaycan Dövlətinin varlığının qorunması üçün yeganə siyasi yol, müdrikliklə qəbul edilmiş diplomatik qərar idi. O dövrdə atəşkəsin əldə olunmasına qarşı çıxan qüvvələr də az deyildi. Azərbaycanın milli və dövlətçilk maraqlarına zidd olan xarici qüvvələr və daxili separatçılar əsasız olaraq iddia edirdilər ki, guya atəşkəsin əldə olunması ilk növbədə Ermənistanın maraqlarına uyğundur. Lakin əsl həqiqət məntiqi təhlil nəticəsində üzə çıxır. Əslində atəşkəsə narazı olanlar, bu barədə ictimai rəydə yanlış təsəvvür yaratmaq niyyətləri ilə Heydər Əliyevin müəyyən etdiyi uzaqgörən sülh, sabitlik və inkişaf strategiyasına qarşı idilər.

Atəşkəsdən az sonra Azərbaycanın dövlət müstəqilliyinin gələcək müqəddəratı naminə son dərəcə zəruri olan ikinci mühüm tarixi hadisə baş verdi. Bu 1994-cü il sentyabrın 20-də Xəzərin Azərbaycan sektorunda karbohidrogen ehtiyatların istismarı məqsədilə "əsrin müqaviləsi" neft kontraktlarının imzalanması idi. Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyev Azərbaycanın neft starategiyasına qarşı çıxan, bu barədə həqiqətdən uzaq fikirlər söyləyən, müxtəlif təxribatçı əməllərdən çəkinməyən qüvvələrə qarşı son dərəcə müdrik formada, soyuqqanlıqla yanaşırdı. Hər şey nəticə ilə ölçülür. Sülh startegiyasının təməli sayılan neft kontraktlarının imzalanması ilk növbədə bütün dünyanın siyasi baxışlarını Azərbaycana yönəltdi. Neft kontraktlarının imzalanmasının 10-cu ildönümü ilə bağlı keçirilən təntənəli mərasimdə çıxış edən Prezident İlham Əliyev həmin hadisələri xatırlayaraq deyirdi:"...Onlar (Neft kontraktlarına qarşı olanlar - S.H.) anlamırdılar, heç anlamaq belə istəmirdilər ki, müqavilələrin şərtləri Azərbaycanın iqtisadi inkişafı üçün nə deməkdir"/1,bölmə siyasət, 23 sentyabr 1999-cu il/.

Heydər Əliyevin neft kontraktlarının imzalanması mərasimindəki nitqindən mühüm bir məqama diqqət edək:"...Biz bu müqaviləni imzalamaqla xarici ölkələrdən Azərbaycana investisiya qoyulması üçün böyük yol açırıq, digər sahələrdə çalışan şirkətlərin də Azərbaycanda fəaliyyət göstərməsi üçün də zəmin yaradırıq, müstəqil Azərbaycan Respublikasının iqtisadiyyatında və ictimai-siyasi həyatında hökm sürən sabitliyi dünyaya bir daha nümayiş etdiririk"/5.s.109/. Azərbaycandakı ictimai-siyasi həyat kifayət qədər gərgin idi. Lakin Heydər Əliyevin siyasi mətinliyi düşünməyə əsas verirdi ki, yaxın vaxtlarda ölkədə sabitlik bərqərar olunacaq. Neft kontraktlarının pozulmasına cəhd edən xarici qüvvələr ölkədəki separatçı qüvvələr vasitəsilə siyasi sabitliyi pozmaq üçün bütün imkanlardan istifadə etməyə başladılar. Həmin ilin oktyabr ayında Daxili İşlər Nazirliyinin Xüsusi Təyinatlı Polis Dəstəsinin (XTPD) böyük bir qrupu Respublikanın Baş Prokurorluğunu zəbt edərək növbəti dəfə ölkədə ciddi bir gərginlik yaratdı. Bu, ilk növbədə Azərbaycandakı ictimai-siyasi sabitliyə inanaraq ölkəyə böyük məbləğdə sərmayə qoymaq istəyində olan xarici şirkətlərin tərəddüd etməsi baxımından ciddi təhlükələr yaradırdı. Digər tərəfdən XTPD-nin ozbaşınalığı ölkədəki digər silahlı siyasi qüvvələri də həvəsləndirə bilərdi. Heydər Əliyev böyük müdrikliklə münaqişəni

dinc yolla saktiləşdirməyə nail olsa da 1995-ci ilin mart ayında XTPD yenidən ölkədəki ictimayi-siyasi, hərbi vəziyyəti gərginləşdirdi. Silahlı qarşıdumanın qaçılmaz olduğunu görən Heydər Əliyev Azərbaycanın dövlətçiliyi üçün yaranmış təhlükəni zərərsizləşdirmək məqsədi ilə yerli televiziya və radio vasitəsi ilə martın 15-də Azərbaycan xalqına müraciət etdi və bu çağırışa milyonlar qoşuldu.

Heydər Əliyevin sülh strategiyasının neft amili ilə bağlılığı inkarolunmaz həqiqətdir. Dünya dövlətlərinin Azərbaycanın zəngin neft ehtiyatlarına olan maraq tarixi 200 ildən artıq dövrü əhatə edir. Ulu öndərimizin bu məqamdan istifadə etməklə qısa bir zamanda Azərbaycan neftinə maraq göstərən dövlətlərin nəzər diqqətini yenidən Azərbaycanın karbohidrogen ehtiyatlarını işlənməsinə cəlb etdi. Lakin Azərbaycandakı real ictimayi-siyasi vəziyyət, ölkənin Ermənistan tərəfindən məcburən müharibəyə cəlb edilməsi bu məsələ üçün ciddi əngəllər törədirdi. İlham Əliyev 1994-cü ildə ARDNŞ-nin birinci vitse-prezidenti kimi Türkiyənin İstanbul şəhərində aparılan neft danışıqlarını belə qiymətləndirirdi:" Bizim qarşımızda üç əsas vəzifə dayanırdı. Birinci kontraktın imzalanmasına nail olmaq, ikinci kontraktda Azərbaycan üçün ən əlverişli, həm hüquqi, həm də iqtisadi şərait yaratmaq, üçüncü isə kontraktın işləməsinə nail olmaq dayanırdı "/1,bölmə siyasət, 23 sentyabr 1999-cu il/. Sonda göstərilən amillərin reallaşması üçün dörd əsas şərt tələb olunurdu:

-Azərbaycan neftinin işlənməsinə maraq göstərən xarici şirkətlərdə bu işin uğurlu gələcəyi barədə inam yaratmaq-möhkəm siyasi iradə;

-Ölkədə sülh və sabitliyin dayanaqlığına zəmanət vermək-cəsarət və mətinlik;

-Azərbaycanın milli və dövlətçilik maraqlarına xidmət edən şərtləri müəyyən edib gerçəkləşdirmək-milli maraq və beynəlxalq təcrübə;

-Neft kontraktlarının işləməsi üçün ölkənin potensial imkanlarını səfərbər etmək - möhkəm iradə və milli səfərbərlik.

Neft kontraktlarının imzalanması mərasimində yuxarıda göstərilənlər barədə Heydər Əliyevin fikirlərinə diqqət etmək daha maraqlıdır:"... Azərbaycan Respublikası müstəqil dövlətdir. Azərbaycan xalqı öz təbii sərvətlərinin sahibidir. Bu sərvətlərdən necə istifadə edilməsini xalqımızın özü sərbəst sürətdə müəyyənləşdirir...Bu təntənəli və möhtəşəm mərasimdə mən Azərbaycan xalqını, Azərbaycan neftçilərini, bütün Azərbaycan vətəndaşlarını bu əlamətdar tarixi hadisə münasibəti ilə təbrik edirəm. Azərbaycan Dövlət Neft Şirkətinin bu sahədə çalışan nümayəndə heyətini, ümumiyyətlə şirkətin bu sahədə gördüyü işləri qiymətləndirirəm və onları nail olduqları müvəffəqiyyətlər münasibəti ilə təbrik edirəm...Bu müqavilənin imzalanması nə qədər çətin idisə, onun həyata keçirilməsi ondan da çətin olacaqdır... Ümidvaram ki, Azərbaycanın qəhrəman və təcrübəli neftçiləri, alimləri, mütəxəssisləri, iqtisadiyyatımızda bu sahə ilə məşğul olan şəxslər, bir sözlə, hamı bu vəzifəni ən böyük, ən şərəfli vəzifə kimi qəbul edib, onun həyata keçirilməsinə nail olacaqdır"/5,s.101-111/.

Neft kontraktlarının imzalanmasında, gerçəkləşməsində və bəhrə verməsində ölkədə yaranmış sülh və sabitlik, kontraktların milli maraq və beynəlxalq təcrübə əsasında tərtib edilməsi, o cümlədən kontraktların həyata keçirilməsində möhkəm iradə və milli səfərbərlik müstəsna rol oynamışdır. Azərbaycanın bütün nailiyyətləri Heydər Əliyevin müəyyən etdiyi sülh və sabitlik strategiyası əsasında qurulmuşdur. Bu siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

### *MƏNBƏLƏR VƏ ƏDƏBİYYAT*

1. www.Azertag.com
2.Abutalıb Səmədov, Abdulla İsayev, Azərbaycanın qurtuluş tarixi-Gəncə faciəsi, Bakı-2002, səh.299.
3.Əli Xacə Nizamülmülk, Siyasətnamə, Bakı-Elm-1989, 206 səh.
4.Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin qurucusu, Bakı: Azərnəşr, 2003, səh.637.
5.Murtuz Ələsgərov, Qurtuluş, Bakı-1998, səh.462.
6.Yaqub Mahmudov, Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti. Bakı-2002, səh.322.
7.Ramiz Mehdiyev, Dünyanı heyran qoyan insan,Bakı-2004, AzərTAc, səh.374.
8.Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin qurucusu, 4, Şahlar Əsgərov, Heydər Əliyev fenomeni haqqında düşüncələr, Bakı:Azərnəşr, 2003, səh.637.

**САБИР ШАХТАХТЫ (ГАДЖИЕВ)**
***личный журналист Азербайджанское Государственное Агентство в Исламской Республике Иран, политолого – социологического факультета Бакинского Государственного Университета.***

## НАЦИОНАЛЬНОЕ ОСВОБОЖДЕНИЕ АЗЕРБАЙДЖАНА – СТРАТЕГИЯ МИРА И СТАБИЛЬНОСТИ ГЕЙДАР АЛИЕВА

В статье говорится о военных событиях, произошедших 4 июня 1993 года в городе Гянджа, в результате которых в стране была сложена напряженная политически- военная обстановка, которую упорядочил общенациональный лидер Гейдар Алиев, своей освободительной миссией. Автор это обосновывает тем, что существование независимого Азербайджанского государства – это торжество решительности Гейдара Алиева. Эта политическая стабитильность и дальнозоркая миролюбивая политика общенационального лидера была направлена не только на Азербайджан, но и на освобождение всего Южного Кавказа.

**SABIR SHAHTAKHTI (HAJIYEV)**
***special correspondent of Azerbaijan State Telegraph Agency in Iran Islam Republic. Phd of Polytology and Sociology Baku State University.***

## AZERBAIJAN NATIONAL LIBERATION – HEYDAR ALIYEV`S PEACE AND STABILITY STRATEGY

This article deals with intense social-political-military situation in the country and national Leader Heydar Aliyev`s rescue mission happened in result of military opposition in Azerbaijan Ganja city on 4$^{th}$ June 1993.

The author substantiates that existence of the Republic of Azerbaijan is the triumph of Heydar Aliyev`s firmness. Stability and peace policy confirmed by National Leader is directed for rescue not only of Azerbaijan, but South Caucasus wholly.

***Rəyçilər: f.e.n.E.Mirbəşiroğlu, t.e.d.M.Ə.Məmmədov.***
***BDU-nun Politologiya və Sosiologiya kafedrasının 14 fevral 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №09).***